DOI: https://doi.org/10.36719/2706-6185/52/125-129

**Fidan Abdullayeva**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0009-9041-1324
fidanazmammadova@gmail.com

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil hüququnun inkişafı

## Xülasə

Təhsil hüququ hər bir insanın fiziki, psixoloji, sosial və əqli inkişafını təmin etmək məqsədilə təhsil müəssisələrinə sərbəst girişi təmin edən əsas hüquqdur. Bu hüquq sərhəd tanımır, universal xarakter daşıyır və bütün şəxslərə şamil edilir. Azərbaycan Xalq Cümhuriyyəti müasir Azərbaycan dövlətçiliyinin hüquqi və siyasi əsasını qoymuşdur. Respublika yarandığı ilk günlərdən təhsil sahəsində mühüm islahatlar həyata keçirmişdir. Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti milli təhsil sisteminin bünövrəsini qoymuş, müstəqil və dünyəvi təhsil modelinin əsaslarını yaratmışdır. Bu atılan addımlar təhsil sahəsində dönüş nöqtəsi kimi qiymətləndirilir.

***Açar sözlər:*** *təhsil hüququ, Azərbaycan Xalq Cümhuriyyəti, Bakı Dövlət Universiteti, təhsil hüququnun inkişafı, Azərbaycan Respublikasında ilk universitet*

**Fidan Abdullayeva**
Baku State University
https://orcid.org/0009-0009-9041-1324
fidanazmammadova@gmail.com

# Development of Education Law During the Azerbaijan Democratic Republic

## Abstract

The right to education is a fundamental right that ensures free access to educational institutions for the purpose of promoting the physical, psychological, social, and intellectual development of every person. This right knows no borders, is universal in nature, and applies to all individuals. The Azerbaijan Democratic Republic laid the legal and political foundation of modern Azerbaijani statehood. From the early days of the republic's establishment, it implemented significant reforms in the field of education. Despite existing for only 23 months, the Azerbaijan Democratic Republic laid the foundation of the national education system and established the basis for an independent and secular model of education. These steps are regarded as a turning point in the field of education.

***Keywords:*** *education law, Azerbaijan Democratic Republic, Baku State University, development of the right to education, the first university in Azerbaijan*

## Giriş

Təhsil hüququ — hər bir insanın fiziki, psixoloji, sosial və intellektual inkişafını təmin etmək məqsədilə təhsil müəssisələrinə sərbəst şəkildə çıxış imkanını əldə etməsini təmin edən fundamental hüquqdur. Bu hüquq sərhəd tanımır, universal xarakter daşıyır və bütün şəxslərə şamil edilir.

Təhsil hüququnun daimi və davamlı olması, şəxsin özünü sərbəst ifadə etməsindən cəmiyyətdə tam faydalı bir şəxs kimi formalaşmasına qədər birbaşa təsir edən amillərdən biridir. İnsan kapitalının dəyəri hələ XX əsrin əvvəllərindən dövlət xadimlərinə bəyan olmuşdur. Sözsüzdür ki, təhsilli və dünyagörüşü zəngin fərdlər demokratik cəmiyyətlərin qurulmasında, hüquqi şüurun formalaşdırılmasında və sosial rifahın yüksəldilməsində mühüm əhəmiyyətə malikdirlər.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Tədqiqat**

Dövlətin sosial funksiyalarından öndə gələni fərdin hüquq və azadlıqlarından tam şəkildə istifadə etməsinə şərait yaratmaqdan ibarətdir. Təhsil hüququnun əsas elementləri qismində əlçatanlıq, bərabərlik, keyfiyyət və məqsədəuyğunluq göstərilə bilər.

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə Şərqdə ilk parlamentli demokratik respublika olmaqla, Tiflis şəhərində yaradılmışdır. AXC, cəmi 23 ay mövcud olmasına baxmayaraq, müasir Azərbaycan dövlətçiliyinin hüquqi və siyasi təməlini qoymuşdur. Cümhuriyyət yarandığı ilk dövrdən etibarən maarif sahəsində mühüm islahatlar həyata keçirmişdir.

**Maarif Nazirliyinin təsis olunması və milli təhsil siyasətinin formalaşdırılması.** Yeni yaradılmış Hökumət təhsili millətin tərəqqisi və dirçəlişi üçün əsas vasitələrdən biri kimi görürdü. Məhz bu səbəbdən müstəqilliyin elan edildiyi gün Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış Hökumət Kabinəsində Xalq Maarifi Nazirliyi də təsis olundu. Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi bu nazirlik fəaliyyətinə respublikada təhsilin səviyyəsini müəyyənləşdirməklə başladı. Təhsil ocaqlarının və təhsilin idarə olunmasının əvvəlki fəaliyyətini dəyərləndirmək üçün aparılan araşdırmalar və toplanmış məlumatlar göstərirdi ki, əvvəlki dövrlərdə mövcud olan təhsilin idarəetmə sistemi artıq müasir tələblərə cavab vermir və həmin sistemin Azərbaycanda tətbiqi mümkün deyildi. Bununla əlaqədar Xalq Maarifi Nazirliyinin yaradılması üçün nazirlik tərəfindən plan hazırlanaraq Hökumətə təqdim olundu.

Plana əsasən, xalq məktəbləri və tədris dairələrinin direktoru vəzifələri ləğv edilməli, bütün respublikada məktəb və maarif işinin idarə olunması Xalq Maarifi Nazirliyinə və məktəb təlimatçılarına verilməli idi. Nazirliyin səlahiyyətinə xalq maarifinə aid qanun layihələri hazırlamaq, respublikada elmin və maarifin inkişafına dair tədbirlər planı müəyyənləşdirmək və s. daxil idi. Nazirliyin Məktəblər İdarəsi nəzdində ali və orta ixtisas təhsili, xalq təhsili və peşə təhsili üzrə üç müstəqil şöbə yaradılmalı idi. Planda göstərilən təkliflər Hökumət tərəfindən qəbul edildi və 1918-ci il iyunun 30-da Hökumətin xüsusi qərarı ilə Xalq Maarifi Nazirliyinin ştat tərkibi təsdiq olundu.

Hökumətin bu istiqamətdəki tapşırıqlarından biri ilk növbədə orta təhsilin inkişaf etdirilməsi və bütün orta təhsil sisteminin yenidən qurulması idi (Azərbaycan Milli Kitabxanası, 2018, pp. 4–5).

**Ana dilində təhsilin təmin olunması.** Xalq maarifinin inkişaf etdirilməsi və orta təhsil sisteminin inkişafına mühüm təkan verən Hökumətin ilk tədbirlərindən biri 1918-ci il 27 iyun tarixli qərarı olmuşdur. Həmin qərara əsasən, Azərbaycan dili dövlət dili elan edildi. Lakin Azərbaycan dilini mükəmməl bilən ixtisaslı kadrların azlığı qərarın həyata keçirilməsini çətinləşdirirdi. Buna görə də ixtisaslı kadrlar hazırlanana qədər müvəqqəti olaraq idarələrdə rus dilindən istifadəyə yol verilirdi. Həmin dövrdə "Azərbaycan dili" ifadəsi geniş istifadə olunmurdu; mənbələrdə "türk dili" ifadəsinə yer verilirdi. Bu çətin şəraitdə məktəb siyasətini həyata keçirmək üçün həlledici tədbirlər görülməli və ilk növbədə bütün məktəblərin milliləşdirilməsi təmin edilməli idi.

AXC-nin milli təhsil siyasəti birbaşa ölkədə milli kadrların hazırlanmasına yönəlmişdi. Hökumətin 1918-ci il 28 avqust tarixli qərarında göstərilirdi:

1. Bütün ibtidai tədris müəssisələrində təhsil şagirdlərin öz ana dilində aparılsın. Türk dili məcburi və gücləndirilmiş şəkildə öyrədilsin.
2. Ali ibtidai və orta təhsil müəssisələrində dərslər türk dilində aparılsın.
3. Həmin tədris müəssisələrinin birinci və ikinci siniflərində dərslər türk dilində aparılsın, türk dilini bilməyən şagirdlər üçün dili öyrənmək məqsədilə paralel kurslar təşkil edilsin və onların dərsləri rus dilində aparılsın. Dövlət dili gücləndirilmiş şəkildə tədris edilsin.
4. Bütün orta məktəblərdə qeyri-müsəlmanlar üçün dini dərslərin təşkili üçün şərait yaradılsın (Azərbaycan Respublikası Milli Məclisi, n.d., p. 294).

Qərarın nəticəsindən belə qənaətə gəlmək olar ki, Azərbaycan dilinin intensiv şəkildə tədris olunması nəzərdə tutulurdu ki, həmin şagirdlər artıq Azərbaycan dilində təhsillərini davam etdirə bilsinlər. Azərbaycan dili məcburi fənn kimi həftədə azı dörd saat tədris edilməli idi.

Hökümətin və Maarif Nazirliyinin həyata keçirdiyi tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəllərində ölkədə dövlət hesabına 637 ibtidai məktəb və 23 orta ixtisas təhsili məktəb fəaliyyət göstərirdi (Azərbaycan Milli Kitabxanası, 2018, p. 6). Qısa zamanda çoxsaylı ibtidai və orta məktəb-

lərin açılması ilə həm dini, həm də dünyəvi fənlərin tətbiqinə başlanıldı. 1919-1920-ci illərdə Azərbaycanın orta məktəblərində 9611 şagird təhsil alırdı ki, onların 3115 nəfəri azərbaycanlı idi.

Yuxarıda qeyd olunanlardan da aydın olduğu kimi, təhsildə ana dilində tədrisin tətbiqi milli təhsil siyasətinin formalaşdırılmasına öndərlik etmişdir. Hər il 27 iyun tarixi ölkəmizdə təntənəli şəkildə Ana dili günü kimi qeyd olunur.

**Qadınların təhsilə cəlb edilməsi.** AXC dövründə qadınların təhsilə cəlb edilməsi üçün xüsusi fikirlər və ideyalar səsləndirilmişdir. İlk müsəlman Şərq dövləti Azərbaycan olmuşdur ki, qadınların təhsil hüququnu tanımaqla, onların kişilərlə eyni səviyyədə və bərabər imkanlarda təhsil almasına şərait yaratmışdır. Bunun nəticəsində qadın məktəblərinin sayı artırılmış, ilk dəfə olaraq qadınların ali təhsil alması istiqamətində təşəbbüslər göstərilmişdir.

1918-ci ildə qəbul edilən və qüvvəyə minən *İstiqlal Bəyannaməsi* Azərbaycan Xalq Cümhuriyyətinin əsas qanunvericilik sənədi, yəni bir sözlə konstitusiyası idi. Bu sənəd Azərbaycan xalqının ilk dəfə müstəqil və demokratik respublika yaratdığını elan edən sənəd olmuşdur. Qısa müddətdə hazırlanmasına baxmayaraq, altı əsas maddəni özündə ehtiva edirdi. Qeyd olunan əsas maddələrdən biri də insan hüquqlarının başlıca prinsiplərindən biri olan bərabərlik hüququ idi. Bu sənədin formalaşdırılmasında Avropa ölkələrinin qanunvericilik sənədləri və çoxillik dövlətçilik ənənələri nəzərə alınmışdı. Əlbəttə, əsas insan hüquqlarının başında dayanan bərabərlik hüququ *Bəyannamə*nin üçüncü maddəsində əksini tapmışdı.

*Bəyannamə*nin 3-cü maddəsində qeyd olunur:

"Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, dinindən, sosial mənsubiyyətindən, cinsindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqlar və siyasi hüquqlar verir."

Mövcud dövr üçün cinsindən asılı olmayaraq bərabərlik hüququnun verilməsi, sözün əsl mənasında, böyük çevriliş və nailiyyət idi. Bu sənədlə 1918-ci ildə Şərqdə qadına ilk dəfə seçmək və seçilmək hüququ da verilmişdi — bu, Avropa ölkələri ilə müqayisədə irəli bir addım idi. Qadınların təhsilə cəlb olunmasına xüsusi diqqət yetirilmişdi. Qız məktəblərinin və gimnaziyalarının açılması nəticəsində təhsilin milli və dünyəvi formada tədris olunması ilə qızlar da bu prosesə cəlb olunmağa başlamışdılar. Məktəblərdə qadın müəllimlərin yetişdirilməsi və yeni kadrların hazırlanması məsələsinə qısa dövr ərzində ciddi diqqət ayrılmışdı.

XX əsrin əvvəllərindən Azərbaycanda qadınların ictimai fəallığı artıq hiss olunurdu. Bəhs edilən dövrdə siyasi, iqtisadi və mədəni proseslər daha da sürətlənmişdi. Qızların təhsili ilə bağlı çoxsaylı problemlərin olduğu bir dövrdə təsadüfi deyil ki, ziyalı qadınların əsas fəaliyyəti maarifçilik sahəsində cəmlənmişdi. H.Məlikova, A.Əfəndiyeva, X.Əlibəyova, X.Vəzirova və digər ziyalı qadınlar artıq özləri təhsil prosesinin mərkəzində dayanır, onu formalaşdırır və azərbaycanlı qızlar üçün məktəblərdə müəllimlik edirdilər. Beləliklə, Azərbaycanda qadın fəallığı maarifçilik və xeyriyyəçilik ideyalarının yayılması ilə başlamışdı. O dövrün görkəmli maarifçiləri yaxşı dərk edirdilər ki, təhsilsiz qadın heç vaxt cəmiyyətdə layiq olduğu mövqeyə yüksələ bilməyəcək (Azərbaycan müəllimi, 2018, p. 13).

Qadın hüquqlarının ən böyük müdafiəçilərindən biri və onların hüquqlarının istismar edilməsinin qarşısının alınması, cəmiyyətin maariflənməsinə can yandıran ziyalılardan biri də M.Ə.Rəsulzadə idi. O, öz əsərlərində qadını ailənin mərkəzində görməklə yanaşı, onu uşaqların tərbiyəçisi və gələcəyin qurucusu kimi qiymətləndirmişdir. *Türkiyədə qadınlar* əsərində o, bütün Şərq ailələrində qadınların düçar olduqları hüquqsuzluğu ümumiləşdirərək diqqəti qadın diskriminasiyası məsələsinə yönəltmişdir. Əsərində qeyd edir: "Qadın bir millətin nisfi mühümmünü təşkil edir. O, aciz, hüquqsuz və mərifətsiz olarsa, millətin yarısı xəstə və məflucdur. Xəstə adam bəllidir ki, sağ və salim bir adamla döyüşə bilməz."

Həmçinin Rəsulzadə "qadın işsizliyini" sosial bəla kimi qiymətləndirmişdir.

Cümhuriyyət dövründə dörd qadın gimnaziyası və üç *Müqəddəs Nina* qız tədris mərkəzi fəaliyyət göstərirdi. 1919-cu il 11 avqust tarixində Xalq Maarif Nazirliyinin qərarı ilə Bakı, Gəncə və Nuxadakı (indiki Şəki) *Müqəddəs Nina* qız tədris mərkəzlərinin adları dəyişdirildi. Onlar müvafiq olaraq Bakı Birinci Azərbaycan Qız Gimnaziyası, Gəncə Qız Gimnaziyası və Nuxa Qız Gimnaziyası adlandırıldılar.

Bu təhsil müəssisələrində tanınmış ziyalı qadınlar fəaliyyət göstərirdi. Həmidə Cavanşir (1873–1955) məşhur maarifçi, xeyriyyəçi, publisist və qadın hüquqları müdafiəçisi olmaqla yanaşı, həm də Cəlil Məmmədquluzadənin həyat yoldaşı idi. Onun sosial fəaliyyətində, dövrün problemlərini qələmə aldığı *Xatirələrim* adlı əsərində qadınların cəmiyyətə qatılması fikrini təbliğ etdiyini və bu sahədə maarifləndirmə apardığını görürük.

Daha maraqlı fakt bundan ibarətdir ki, Həmidə xanım beynəlxalq toplantıda (1912-ci il, Tiflis) çıxış edən ilk Azərbaycan qadınıdır (Azərbaycan müəllimi, n.d., p. 16).

**Bakı Dövlət Universitetinin təsis olunması və ilk ali təhsil müəssisəsinin yaranması.** Həmin dövrün ən böyük inqilablarından biri 1919-cu il 1 sentyabr tarixində Bakı Dövlət Universitetinin təsis olunması idi. Hazırda mövcud universitetlər arasında Bakı Dövlət Universiteti öz liderliyini qorumaqdadır; həmçinin Qafqaz regionunda yaradılmış ilk ali təhsil mərkəzi olması ilə tarixiliyini saxlayır. Universitetin yaradılmasının ən başlıca səbəblərindən biri yerli kadrların yetişdirilməsi idi. O zaman üçün ilk dərs ilində ən aktual olan dörd fakültə — tarix-filologiya, fizika-riyaziyyat, hüquq və tibb fakültələri yaradılmışdı (*Azərbaycan Xalq Cümhuriyyəti: 1918–1920 təhsil siyasəti*, 2018).

Bakı Dövlət Universiteti yarandığı ilk dövrdən etibarən insan kapitalının formalaşdırılmasında, elmi biliklərin inkişafında əvəzsiz rola malikdir. Müxtəlif ölkələrdən gənclərin təhsillərini davam etdirmək məqsədilə buranı seçməsi də əhəmiyyətli nailiyyətlərdən hesab oluna bilər.

**Gənclərin təhsil almaq məqsədilə xarici ölkələrə göndərilməsi.** Cümhuriyyət tarixində yerli təhsil müəssisələrində gənclərin təhsilə cəlb edilməsi ilə yanaşı, onların dünyagörüşlərinin artırılması məqsədilə xarici ölkələrə göndərilməsi məsələləri də gündəmdə idi. AXC-nin maarifçilik siyasətinin davamı olaraq, 1919-cu ildə Avropa ölkələrinə (əsasən Almaniya, Fransa, İtaliya və Türkiyə) 100-dən çox tələbənin göndərilməsi üçün dövlət hesabına təqaüdlər ayrıldı. Belə ki, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, Xalq Maarif Nazirliyinin xətti ilə 100 nəfər azərbaycanlı gənc dövlət hesabına ali təhsil almaq məqsədilə xarici ölkələrin ali təhsil müəssisələrinə göndərildi. Məlumat üçün qeyd etmək lazımdır ki, xaricə göndəriləcək gəncləri Xalq Cümhuriyyətinin Parlamenti seçirdi və bu baxımdan parlamentin üzərinə məsuliyyətli iş düşürdü. M.Ə.Rəsulzadənin başçılığı, M.Hacınski, Ə.Pepinov, Q.Qarabəyov və A.Əfəndizadənin üzvlüyü ilə beş nəfərdən ibarət xüsusi müsabiqə komissiyası yaradıldı. Müsabiqə komissiyasının qərarı ilə ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Osmanlı ali məktəblərinə göndərildi. Rusiyada oxumaq üçün seçilmiş 13 nəfər isə vətəndaş müharibəsi ilə əlaqədar olaraq təhsil almağa gedə bilmədi. Həmin gənclərin təhsil haqlarının qarşılanması dövlət tərəfindən həyata keçirilir və bu məqsədlə 7 milyon rubl ayrılmışdı. Bu siyasətin məqsədi müasir Avropa təhsil sisteminin mənimsənilməsi və elmi yeniliklərin öyrənilməsi idi. Gənclərdən təhsillərini bitirdikdən sonra ölkəyə qayıdaraq milli inkişafda iştirak etmələri gözlənilirdi.

## Nəticə

Təhsillərini bitirdikdən sonra gənclərin bir qismi xaricdə qalmağa üstünlük verdi, qalan qismi isə qayıdaraq yiyələndikləri ixtisaslara uyğun olaraq fəaliyyətlərini davam etdirdilər. Cümhuriyyətin süqutundan sonra gənclərin bəziləri təqib olunmağa başlandı və beləliklə repressiya qurbanlarına çevrildilər. Gənclərdən bəziləri isə uğurlu fəaliyyətlərinə görə Lenin ordeni kimi dövlət mükafatları ilə təltif olundular (Bayramova, 2018).

**Maarifçilik və milli oyanış.** Bu dövrdə ana dilli qəzetlər, dərnəklər və müəllim cəmiyyətləri yaradıldı. Təhsilin inkişafı həm milli şüurun formalaşmasına, həm də müstəqillik ideyasının güclənməsinə xidmət edirdi. M.F.Axundov, H.Zərdabi, C.M.Quluzadə, Ü.Hacıbəyli kimi şəxslər xalqın maariflənməsində birbaşa iştirak edirdilər. Milli birlik ideyasını ən dolğun formada yazdıqları əsərlərdə ifadə edirdilər. Onların rəhbərliyi altında *Əkinçi*, *Molla Nəsrəddin*, *Kaspi* kimi qəzet və jurnallar təkcə təhsillə bağlı deyil, həm də milli dəyərləri əks etdirirdilər.

Cəmi 23 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti milli təhsil sisteminin bünövrəsini qoymuş, müstəqil və dünyəvi təhsil modelinin əsaslarını yaratmışdır. Bu atılan addımlar təhsil sahəsində dönüş nöqtəsi kimi qiymətləndirilir.

## Ədəbiyyat

1. Azərbaycan Milli Kitabxanası. (2018). *Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsil*. https://www.anl.az/down/meqale/olaylar/2018/may/592474.htm
2. Azərbaycan Respublikası Milli Məclisi. (n.d.). *Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti*. https://www.meclis.gov.az/news-az.php?id=14&lang=az
3. Azərbaycan müəllimi. (2018, noyabr 23). Cümhuriyyət dövründə təhsildə qadınlar. (Məryəm Yəhyayeva)
4. Azərbaycan müəllimi. (n.d.). *Cümhuriyyət və təhsil*. https://old.muallim.edu.az/news.php?id=2921
5. Azərbaycan Xalq Cümhuriyyəti: 1918–1920 təhsil siyasəti. (2018).
6. Bayramova, S. (2018). Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasəti. *Strateji Təhlil*, 1–2(23–24).
7. Cavanşir, Həmidə xanım. (2012). *Xatirələrim*. Apostrof.
8. İskəndərov, A., & Əliqızı, S. (2019). *Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı: Bakı Dövlət Universiteti – 100*. Nurlar.
9. İstiqlaliyyət bəyannaməsi. (1918/republished). https://axc.preslib.az/az/page/iKYoaVNIsO
10. İsmayılov, K. (2018, noyabr 15). Hərbi and. *Azərbaycan*, №44, 15.
11. Prezident Kitabxanası. (n.d.). *Azərbaycan Xalq Cümhuriyyəti – Təhsil*. https://axc.preslib.az/az/page/62uWwbkSnP
12. Təhsil islahatları: Azərbaycan Xalq Cümhuriyyəti dövründə elm və təhsil. (n.d.). https://azedu.az/arashdirma/28690/azerbaycan-xalq-cumhuriyyeti-dvrunde-elm-ve-tehsil-islahatlari/

Daxil oldu: 14.07.2025
Qəbul edildi: 06.10.2025